# Qlobal güc mübarizəsinin yeni koordinat mərkəzi



## 2024-cü il 3-4 iyul tarixlərində Astana şəhərində "ŞƏT plyus" sammiti keçirilib

*Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əlaqələri artıq sırf regional maraqları aşaraq qlobal miqyasda siyasi çəkisinin artmasına xidmət edən strateji xəttə çevrilib. Ötən ilin 3-4 iyul tarixlərində Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən "ŞƏT+" formatlı sammit bu baxımdan mühüm geosiyasi hadisə kimi yadda qaldı. Sammitdə dünyanın 16 ölkəsinin dövlət və hökumət başçısının iştirakı və gündəliyin əsas mövzusunun "Avrasiya təhlükəsizlik sistemi" kimi fundamental problemə həsr olunması beynəlxalq təhlükəsizlik arxitekturasında Şərq ölkələrinin təşəbbüskarlığının artdığını göstərdi. Qərbin hegemon modelinə qarşı alternativ güc mərkəzlərinin formalaşdığı şəraitdə Azərbaycanın bu platformada fəal iştirakı və yüksək səviyyədə təmsil olunması ölkənin geosiyasi manevr imkanlarını nümayiş etdirir. Astanada keçirilən sammit həm də dünya ictimaiyyətinə Qərb və Şərq arasındakı strateji qarşıdurmanın konturlarını göstərdi. BMT Baş katibinin də iştirakı platformaya göstərilən beynəlxalq marağın səviyyəsini sübut etdi. Sammit boyu müşahidə edilən çoxvektorlu təmaslar və ikitərəfli görüşlər ŞƏT-in getdikcə daha da güclənən geosiyasi çəkisini ortaya qoydu.*

Mürəkkəb və dəyişkən geosiyasi reallıqlar fonunda Azərbaycanın həm Qərb, həm də Şərq platformalarında təmsil olunması ölkənin balanslaşdırılmış xarici siyasət kursunun uğur göstəricisidir. Qərblə enerji və təhlükəsizlik sahəsində inkişaf edən əməkdaşlıq, Şərqdə, xüsusilə Çin və Rusiya ilə güclənən münasibətlər ölkəmizin çoxqütblü dünya düzənində özünəməxsus rol oynadığını təsdiqləyir. Bu strateji kursun memarı Prezident İlham Əliyevdir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan həm regionda, həm də Avrasiya məkanında sabitlik, nəqliyyat və enerji təhlükəsizliyi məsələlərində aparıcı aktora çevrilib. Sammit çərçivəsində Çin lideri Si Cinpinin Prezident İlham Əliyevə verdiyi yüksək dəyər və onu ölkəsinə rəsmi səfərə dəvət etməsi Azərbaycanın yalnız regional deyil, beynəlxalq aləmdə mövqeyinin gücləndiyini göstərir. Sammitin diqqətçəkən mühüm elementlərindən biri də transmilli nəqliyyat dəhlizləri mövzusunun Azərbaycanla bağlı xüsusi vurğulanması oldu. Liderlərin Prezident İlham Əliyevlə görüşlərində bu məsələnin prioritet kimi qeyd olunması təsadüfi deyil. Azərbaycanın təşəbbüsü ilə formalaşan Orta Dəhliz layihəsi regional iqtisadi inteqrasiyanın, Avrasiya təhlükəsizlik sisteminin iqtisadi dayaqlarının formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan, Türkiyə və Pakistan liderlərinin üçtərəfli görüşü bu baxımdan strateji əhəmiyyət daşıyır. Bu üç dövlət nəinki Orta Dəhliz coğrafiyasında sabitliyin təmininə, həm də yeni dünya nizamında öz maraqlarını müstəqil şəkildə qorumağa qadir ortaq güc formalaşdırıb. Bu format həm də Türk Dövlətləri Təşkilatı, İƏT və digər regional platformalarla sinxron şəkildə fəaliyyət imkanları yaradır.

Səfər çərçivəsində imzalanmış mühüm sənədlər arasında xüsusilə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" imzalandı. Sənəd ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu təsdiqləməklə yanaşı, Azərbaycanın Çin kimi nəhəng dövlətlə bərabərhüquqlu dialoq və əməkdaşlıq qurduğunu nümayiş etdirdi. Sənəddə regional və qlobal təhlükəsizlik, terrorizm və separatizmə qarşı mübarizə kimi mühüm geosiyasi məsələlər üzrə ortaq mövqelər öz əksini tapır. Bu isə Azərbaycanın beynəlxalq təhlükəsizlik arxitekturasında konstruktiv iştirak niyyətinin daha da dərinləşdiyini göstərir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev sammitdə təşkilatın gələcək istiqamətini müəyyənləşdirən əhəmiyyətli fikirlər səsləndirdi. ŞƏT-in məqsədinin Qərb təsisatlarını əvəzləmək deyil, tamamlayıcı mexanizm kimi çıxış etmək olduğunu bildirdi. Tokayevin fikirləri fonunda aydın görünür ki, yeni dünya düzənində qarşılıqlı tamamlayıcılıq əsas prinsipə çevrilməkdədir. Azərbaycanın bu platformalarda iştirakı isə məhz sözügedən prinsipi rəhbər tutan xarici siyasətin nümunəsi kimi çıxış edir.

Sammitdə BMT-nin Baş katibi Antonio Quterreşin vurğuladığı məqamlar, xüsusilə iqlim dəyişmələri ilə mübarizənin maliyyə aspektləri, bu problemin qlobal bərabərsizliklə sıx bağlı olduğunu göstərdi. Baş katib həmin il Bakıda keçiriləcək COP29-u planetin gələcəyi baxımından kritik hadisə kimi dəyərləndirdi. Quterreşin özəl kapitalın iqlim mübarizəsinə cəlb edilməsi və çoxtərəfli inkişaf banklarının biznes modelinin dəyişdirilməsi kimi radikal çağırışları iqlim diplomatiyasının artıq real iqtisadi transformasiyaya yönəldiyini göstərdi. COP29-un Bakıda keçirilməsi Azərbaycanın qlobal çəkisinin, xüsusilə də inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş dünya arasında körpü rolunun təsdiqidir. İlham Əliyevin müxtəlif ölkələrin liderləri ilə paralel təmasları çoxvektorlu diplomatiyanın getdikcə daha da genişləndiyini göstərir.

ŞƏT-lə əlaqələrinin ilk mərhələsi Prezident İlham Əliyevin 2022-ci ildə Səmərqənd Sammitində fəxri qonaq kimi iştirakı ilə başlasa da, bu münasibətlər qısa müddət ərzində yüksələn xətlə inkişaf edərək yeni strateji mərhələyə qədəm qoydu. Azərbaycanın ŞƏT məkanında əhəmiyyətini artıran əsas səbəblərdən biri onun nəqliyyat-logistika imkanlarının sürətlə genişlənməsidir. "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq dəhlizlərinin qovşağında yerləşməsi ölkəmizi bu marşrutların tranzit mərkəzinə çevirir. Xüsusilə "Orta Dəhliz" layihəsi çərçivəsində Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycan tərəfindən maliyyələşdirilərək inşa olunması ölkəmizin həm maliyyə, həm də strateji baxımdan təşəbbüskar rolunu nümayiş etdirir. Rəsmi Bakı nəinki ŞƏT dövlətləri üçün mühüm tərəfdaşa çevrilir, həm də Avrasiya enerji və ticarət sisteminin əsas "oyunçularından" biri kimi tanınır. Ölkə başçısının "ŞƏT plyus" formatında görüşü zamanı söylədiyi fikirlər bunu bir daha təsdiqləyir: "Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib. Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb. Biz tərəfdaşlarımızla Orta Dəhlizin rəqəmsallaşması üzərində işləyirik. Bundan başqa, Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətindədir. Azərbaycan, həmçinin "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır. "Şimal-Cənub" dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq".

Azərbaycanın beynəlxalq nüfuzunun artıran əsas faktorlarından biri də Bakının COP29 konfransına ev sahibliyi etməsi idi. Bu tədbir təkcə ekologiya və iqlim məsələlərinin deyil, həm də inkişaf etməkdə olan ölkələrin qlobal gündəlikdəki yerinin müzakirə olunacağı mühüm bir platforma kimi yadda qaldı. Prezident İlham Əliyevin ŞƏT+ sammitində çıxışı zamanı təşkilata üzv dövlətlərin liderlərini COP29-a rəsmi şəkildə dəvət etməsi Azərbaycanın COP29-u qitələrarası diplomatik körpü funksiyası ilə əlaqələndirməyə çalışdığını göstəricisi idi. Bu, həm də Azərbaycanın ŞƏT platformasını qlobal problemlərin müzakirəsində inteqrasiya olunmuş mexanizmə çevirməyə yönəlmiş diplomatik strategiyasının bir hissəsidir.

Astanadakı daha bir mühüm hadisə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında baş tutan üçtərəfli görüş oldu. Bu format dost və qardaş ölkələr arasında həmrəyliyin nümayişi, yeni dünya nizamında Bakı-Ankara-İslamabad regional güc mərkəzinin təşəkkül tapmasının əlamətidir. Üç ölkənin coğrafi mövqeyi, hərbi-siyasi potensialı və transmilli layihələrdə iştirakı onları Avrasiyanın təhlükəsizlik və enerji sistemində liderliyə iddialı aktorlara çevirir. ŞƏT platformasında bu üçlüyün təmsilçiliyi isə təşkilatın çoxqütblü dünya düzənində daha balanslı xarakter almasına səbəb ola bilər.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyul (№ 133).- S.9.